

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 242 (24.379)

*28 dekabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiymәti 30 qәpik


*2023-cü il "Heydər Əliyev İli"dir*

## Xalqın hüquqi düşüncə tərzini dəyişən LİDER

*Hər bir xalqın milli azadlığa və dövlət müstəqilliyinə qovuşması üçün üç mühüm şərt tarixi şans, milli iradə və liderə malik olmasıdır. Görkəmli şəxsiyyətlər özləri situasiya yaradır və onu lazımi istiqamətə yönəltməklə qarşıya qoyduqları məqsədləri reallaşdırmağa nail olurlar. Bacarıqsızlar isə bu situasiyaların əsirinə çevrilir, hadisələrin axarına düşüb üzürlər.*

Görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinə nəzər salarkən əmin oluruq ki, O, ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə öz doğma xalqına sədaqətlə xidmət edib.

*(ardı 2-ci səhifədə)*



## Qalib Azərbaycanın Zəfər seçkisi

Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev bildirdi ki, ***"Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl – 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi".***

Qalib liderin səsləndirdiyi bu fikirlər bir daha təsdiqləyir ki, 20 il əvvəl xalqın böyük etimad göstərdiyi Prezident cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi yolu uğurla davam etdirərək xalqa verdiyi sözə tam əməl etdi. Beləliklə də Müzəffər Ali Baş Komandan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edərək üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı.

*(ardı 2-ci səhifədə)*

## Səlahiyyətli nümayəndə Ordubadda sakinlərlə görüşüb

Dekabrın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayonunda olub, sakinlərlə görüşüb.

Görüşdən əvvəl səlahiyyətli nümayəndə Fuad Nəcəfli və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli Ümummilli Liderimiz Heydər Əliyevin Ordubad şəhərində ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.



Sonra vətəndaşları qəbul edən səlahiyyətli nümayəndə ötən dövrdə də sakinlərlə görüşlərin keçirildiyini, bu cür görüşlərin nöqsan və çatışmazlıqların müəyyənləşdirilməsi və həllində mühüm rol oynadığını bildirib. Vurğulayıb ki, il ərzində rayonun bir sıra yaşayış məntəqələrində su təminatı yaxşılaşdırılıb, yollar yenidən qurulub, körpülər tikilib və digər tədbirlər görülüb. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın belə tədbirlərin növbəti ildən daha geniş və əhatəli şəkildə təşkilinə imkan verəcəyini bildirən Fuad Nəcəfli qeyd edib ki, gələn ildən Ordubadda da mühüm infrastruktur layihələri reallaşdırılacaq. Azərbaycanın turizm incisi olan Ordubad şəhərində yeni otel kompleksi tikiləcək, şəhərin Anbaras və Sərşəhər məhəllələri şəhərin yeni baş planına uyğun yenidən qurulacaq, Ordubad abidələri və tarixi yerlər elmi əsaslarla, orijinal quruluşu saxlanılmaqla bərpa olunacaq, şəhərdə inşa olunacaq Şəhidlər Memorial Abidə Kompleksində Ordubadın qəhrəman oğullarının xatirələri əbədiləşdiriləcək. Bundan başqa, Ordubad şəhərində yeni uşaq bağçası, yeni istehsal müəssisələri, Kələntər Dizə kəndində müasir məktəb binası inşa olunacaq, qəsəbə və kəndlərdə infrastrukturlar yenilənəcək, yollar və körpülər inşa ediləcək. Bütün bunlar əhalinin rifah halını yüksəldəcək.





Fuad Nəcəfli vurğulayıb ki, ötən dövrdə aparılan vətəndaş qəbulları nəticəsində qlobal istiləşmə zəminində muxtar respublikada əhalinin ən çox əziyyət çəkdiyi problemlərin əsasında içməli su təminatının dayandığı müəyyən edilib. Naxçıvanda bu baxımdan ən çox əziyyət çəkən 12 yaşayış məntəqəsi müəyyənləşdirilib və mövcud problemlərin qısa zamanda aradan qaldırılması üçün iş aparılır. Bu yaşayış məntəqələri sırasında Ordubadın Düylün kəndi də var.

Səlahiyyətli nümayəndə qeyd edib ki, ölkəmiz üçün olduqca uğurlu il olan 2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini, Ulu Öndərin siyasətini uğurla davam etdirərək ölkəmizi zəfərdən zəfərə aparan cənab İlham Əliyevin ilk dəfə prezident seçilməsinin 20 illiyini və digər mötəbər tədbirləri qeyd etdik. Azərbaycanımızın ərazi bütövlüyü və suverenliyimiz tam bərpa olundu. Növbəti il isə ölkəmizin bütün ərazisində prezident seçkilərinin keçirilməsi ilə yaddaqalan olacaq.

Fuad Nəcəfli bu cür görüşlərdə fəal iştirak etməklə mövcud problemlərin gündəmə gətirilməsinə və həllinə dəstək göstərdiklərinə görə Ordubad rayon ictimaiyyətinə təşəkkür edib, hər kəsi gələn il səsvermə hüququndan istifadə etməyə səsləyib.

Sonra görüşdə iştirak edən rayon sakinlərinin hər biri ilə fərdi söhbət aparılıb, onların problemləri və təklifləri dinlənilib. Müraciətlərin hər biri protokollaşdırılaraq həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi bildirilib.

**"Şərq qapısı"**

**Ulu Öndər Heydər ƏLİYEV:** ***Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.***

*2023-cü il "Heydər Əliyev İli"dir*

# Xalqın hüquqi düşüncə tərzini dəyişən LİDER



(əvvəli 1-ci səhifədə)

***"Mən ömrümün qalan hissəsini də Azərbaycan xalqına bəxş edirəm!"*** Doğrudan da, 1993-2003-cü illərdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, ölkəmizin hərtərəfli inkişafında, Azərbaycanın o ağır, çətin vəziyyətdən xilas edilməsində Ulu Öndərimizin müstəsna rolu vardır. Tarixən hər bir xalqın keçdiyi yol müəyyən mənada ona rəhbərlik etmiş böyük siyasi liderlərin, parlaq şəxsiyyətlərin çoxşaxəli fəaliyyətində təcəssümünü tapmışdır. XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, dünyanın görkəmli dövlət xadimlərindən biri, Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında yalnız insanlarımızın istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini məhz ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, qurub-yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Azərbaycan dövlətçiliyinin müasir tarixinə öz adını əbədi həkk etmiş bu nadir tarixi şəxsiyyətin, fenomenal siyasi xadimin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi qəbul edilir. Ümummilli Liderimizin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi mükəmməl milli dövlət, müstəqil Azərbaycan Respublikasıdır.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması məqsədilə həyata keçirilən hüquqi islahatlar içərisində ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu. Demokratik, hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərcmərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu. Ulu Öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhvali-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

Heydər Əliyevin dühası, qlobal inkişaf meyillərini irəlicədən görmək, öz ölkəsinin dünya birliyində rolunu, yerini və imkanlarını dəqiq müəyyənləşdirmək qabiliyyəti, çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində müstəqil Azərbaycanın başı üstünü almış təhlükələr aradan qaldırıldı. Qanunsuz silahlı birləşmələr və quldur dəstələri qısa müddətdə ləğv edildi, ölkənin ordusu yaradıldı. Asayiş və qayda-qanun bərqərar edildi, soyğunçuluğa, vətəndaşların əmlakının qəsb olunması faktlarına son qoyuldu. Qarabağ müharibəsində atəşkəs əldə edildi. Dövlətçilik yenidən yaradıldı, insanların öz qüvvələrinə inamı özlərinə qaytarıldı. İctimai-siyasi vəziyyətin normallaşdırılması iqtisadiyyatda zəruri dəyişiklikləri həyata keçirməyə imkan verdi.

Ümummilli Liderin Azərbaycanda rəhbərliyə gəlişi, eyni zamanda cəmiyyətdə hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş, hüquqi təfəkkürün, hüquqi düşüncə tərzinin, hüquqi mədəniyyətin, ümumilikdə, hüquq elminin inkişafının keyfiyyətcə yeni mərhələsi başlanmışdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan sivil dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, qlobal məkanda cərəyan edən proseslərin istiqamətverici subyektinə çevrilməyə nail olmuşdur. Yeni dünya düzənində aparıcı güc mərkəzləri arasında gedən mübarizənin mahiyyətinə uyğun xarici siyasət yeridən müstəqil Azərbaycan Cənubi Qafqazın lokomotiv dövlətinə çevrilmiş, ölkəmizin regionda gerçəkləşdirilən bütün transmilli layihələrdə iştirakı təmin olunmuşdur. Böyük öndərin rəhbərliyi altında Azərbaycanın xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri ümummilli mənafelərə, habelə siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran qətiyyətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan böyük diplomatik məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Məhz bütün bunların nəticəsidir ki, Azərbaycan cəmiyyəti Heydər Əliyevin əsasını qoyduğu unikal liderlik institutunu və dövlətçilik sistemini ölkənin beynəlxalq təhlükəsizliyinin, iqtisadi maraqlarının, siyasi sisteminin sabitliyinin təmin edilməsinə yönələn fəlsəfi dünyagörüşü kimi qəbul edir.

Müstəqil Azərbaycanın bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilməsi heç də yalnız respublikanın zəngin təbii sərvətləri və intellektual resursları ilə şərtlənmir. Azərbaycanda bu potensialın xalqın mənafeyinə uyğun realizə edilməsi, hər kəsi qane edə biləcək milli siyasət strategiyasının həyata keçirilməsi, eyni zamanda xarici siyasət kursunun prioritetlərinin doğru-düzgün müəyyənləşdirilməsi və reallaşdırılması ilə sıx bağlıdır.

Bu gün müşahidə etdiyimiz gerçəklikləri o dövrün çətin reallıqları ilə müqayisə etdikdə görərik ki, Ümummilli Lider Heydər Əliyev ölkəmizin qarşısında duran problemlərin həllinə nail olmağı, dövləti böhranlı durumdan çıxarmağı bacarmışdır. Bu qənaətə gəlmək mümkündür ki, o zaman zərgər dəqiqliyi ilə müəyyənləşdirilmiş xarici siyasət kursu özünü bütün mənalarda doğrultmuşdur. Əgər ötən əsrin sonlarında qazanılmış dövlət müstəqilliyinin ilk illərində Azərbaycanın, sadəcə, siyasi kuluarlarda tanınan bir ölkə olduğunu nəzərə alsaq, bu gün ay-ulduzlu, üçrəngli bayrağın hansı dövlətin rəmzi olduğunu artıq bütün dünyanın dərk etməsinə, sadəcə, sevinməklə kifayətlənməyib, bundan həm də qürur hissi keçirməliyik. Nəticə isə ondan ibarətdir ki, Ulu Öndər Heydər Əliyevin və hazırda Onun siyasi kursunun layiqli davamçısı olan Prezident cənab İlham Əliyevin siyasi və diplomatik səylər nəticəsində Azərbaycan haqqında vaxtilə formalaşmış mənfi rəy artıq tamamilə dağıdılmışdır.

*Bütün bunlar qəti əminlik yaradır ki, nə qədər Azərbaycan milləti və dövləti var, dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyev həmişə xatırlanacaq, Onun parlaq siması qədirbilən insanların qəlbində yaşayacaq, əziz və unudulmaz xatirəsi hər zaman xüsusi ehtiramla anılacaqdır.*

**Amil RƏHİMOV**
***Naxçıvan Muxtar Respublikası prokurorunun müavini, ədliyyə müşaviri***

# Qalib Azərbaycanın Zəfər seçkisi

*7 fevralda dəmir siyasi iradə və xalqın birliyi öz sözünü deyəcək*



(əvvəli 1-ci səhifədə)

Ümummilli Lider Heydər Əliyevin ***"Mən ona özüm qədər inanıram"*** sözlərini xalqa verdiyi vədləri yerinə yetirməklə əməldə təsdiq edən Prezident cənab İlham Əliyev Azərbaycan xalqının böyük sevgisini qazanıb. Məhz Prezident cənab İlham Əliyevin ***"Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi"*** sözləri Azərbaycan xalqının müdrik seçiminin məntiqi nəticəsidir.

2024-cü ilin 7 fevral tarixində xalqımız yenidən öz siyasi iradəsini ortaya qoyacaq. Bu dəfə qalib xalq olaraq ölkəmizin hər bir bölgəsində seçkilərin şahidi olacağıq. Çünki müstəqil Azərbaycanın tarixində ilk dəfədir ki, seçkilər bütün ölkə ərazisində keçiriləcək. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Növbədənkənar seçkilərin keçirilməsi də məhz ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir. Bir sözlə, 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərini Zəfər seçkiləri adlandırsaq daha düzgün olar.

Dünyada yaşayan bütün azərbaycanlıların rəğbət bəslədiyi cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyası İdarə Heyətinin genişləndirilmiş iclasında növbədənkənar prezident seçkilərinə namizədliyi irəli sürülüb və bununla bağlı qərar yekdilliklə qəbul edilib. ***"Nəyi, necə, nə vaxt etmək lazımdır, biz bunu bilirik"*** fikrini əməli fəaliyyəti ilə təsdiq edən cənab İlham Əliyevin növbədənkənar seçkilərdə iştirakı hər bir Azərbaycan vətəndaşını sevindirir.

Ölkə qanunvericiliyinə uyğun və dünyada qəbul olunmuş siyasi təcrübəyə əsaslanan növbədənkənar seçkilərdə Azərbaycan vətəndaşları siyasi iradələrini, sadəcə olaraq, vaxtından əvvəl ifadə edəcəklər. Çünki Azərbaycan Respublikasının Seçki Məcəlləsi növbəti prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir.

Azərbaycanın tarixi qələbəsini, Avropanın qibtə etdiyi liderin gördüyü işləri, Cənubi Qafqaz regionunda bərqərar olacaq sülhü həzm edə bilməyən qara qüvvələr yenə də öz "demokratik" təxribatlarından əl çəkmirlər. Belə ki, potensiallı siyasi qüvvələrin seçki marafonuna hazırlaşdığı bir vaxtda "tez-tez seçkilər keçirilsin" deyərək boğazını yırtan məhdud potensiallı qüvvələrin qərəzli mövqe nümayiş etdirməsi siyasi acizliyin və məğlubiyyətin etirafıdır.

Reallıq ondan ibarətdir ki, qalib Azərbaycan kimi regionda tam müstəqil bir ölkənin mövcudluğunu həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir. Prezident cənab İlham Əliyevin dediyi kimi ***"Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın".***

Göründüyü kimi, Azərbaycan xalqı dəmir siyasi iradəyə malik və verdiyi hər bir sözə əməl edən qalib liderin ətrafında sıx birləşərək ölkəmizin xoş gələcəyi üçün əzmkarlıq nümayiş etdirib. Gələn ilin 7 fevral tarixində də xalqımızın ədalətli seçimi ölkəmizin xoşbəxt gələcəyi və güclü, qüdrətli, qalib Azərbaycan naminə olacaq.

**Nəriman NƏCƏFOV**

# Dünya şöhrətli naxçıvanlı rəssam İbrahim Safinin anadan olmasından 125 il ötür



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin, AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə "İbrahim Safi. Rəssam-impressionist" adlı yubiley tədbiri baş tutub. Tədbirin iştirakçıları əvvəlcə Naxçıvan Dövlət Milli Dram Teatrının foyesində fırça ustasının əsərlərindən ibarət sərgiyə baxış keçiriblər.

Mərasimi giriş nitqi ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev İbrahim Safinin həyat və yaradıcılığı barəsində ətraflı məlumat verib. Akademik bildirib ki, Şərur rayonunun Cəlilkənd kəndində, Səfiyevlər ailəsində dünyaya gələn Rəhman Səfiyev ömrünün sonuna qədər Türkiyədə yaşayıb, bəşəriyyətin incəsənət xəzinəsinə qiymətli incilər qazandırıb, həm də Mustafa Kamal Atatürkün obrazını yaradan ilk rəssam olaraq tarixə yazılıb.

"İbrahim Safi yaradıcılığı həm də ona görə önəmlidir ki, o, iki qardaş ölkə arasında mədəni körpü rolunu oynayıb, ortaq türk mədəniyyətinin inkişafına xidmət edib", – deyən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Seyidov bildirib ki, rəssam yaradıcılığında realizmə üstünlük verib.

Döyüşçü rəssamın yaradıcılığında müharibə mövzusundan danışan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva vurğulayıb ki, İbrahim Safi 10 000-dən çox qiymətli sənət əsəri yaradıb, dünyanın müxtəlif ölkələrində 100 sərgisi açılıb.

Sonra Ülviyyə Həmzəyevanın müəllifi olduğu "İbrahim Safi. Rəssam-impressionist" kitabının təqdimatı keçirilib.

Yubiley tədbiri çıxışlarla davam edib.

Sonda görkəmli rəssamın həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

## “Ən böyük qayəmiz ana Vətənin layiqli övladı olmaqdır!”




“Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq” rubrikasında növbəti həmsöhbətimiz ***Bəhruz Bayramov***dur. Xaçmaz rayon Fərzəlioba kəndindən olan Bəhruz 2012-2016-cı illərdə Sumqayıt Dövlət Universitetində Mühasibat uçotu üzrə bakalavr təhsili alıb. Təhsil illərində aktiv tələbə kimi bir çox təlimlərə, seminarlara qoşulduqdan sonra universitet nəzdində çoxşaxəli bir klub yaradaraq tələbələr üçün müxtəlif mövzularda seminarlar keçməyə və təlimçilər cəlb etməyə başlayıb. “Universiteti bitirdikdən sonra 2 ilə yaxın müddətdə təhsilimi xaricdə davam etdirmək üçün doğru ölkə və universitet axtarışında oldum”, – deyən müsahibimiz 2018-ci ildə Çinə yollanıb. Müsahibimiz Uzaq Şərqdəki fəaliyyətindən belə söz açır: – 2021-ci ildə MBA (araşdırma maliyyə və bank sektoru) təhsilimi Çinin və dünyanın ən yaxşı ali təhsil müəssisələrindən biri olan Sian Xiotonq Universitetində (Xian Jiaotong University) yüksək bal və müxtəlif nailiyyətlərlə bitirdikdən sonra eyni universitetdə doktorantura təhsili almağa başladım. Həmin zaman minlərlə tələbə arasından universitet elçiləri seçilirdi və seçilmiş 26 tələbədən biri də mən idim. Bununla da universitetimizə yeni gələn xarici professorlarla görüşərək onları ali təhsil ocağımız və şəhərimizlə tanış edirdim. Söhbət əsnasında, təbii ki, ölkəmiz haqqında da kifayət qədər suallar alırdım. Çalışırdım ki, bu kimi hallarda doğma Azərbaycanı layiqli şəkildə tanıda bilim. Bununla yanaşı, zəngin kulinariya mədəniyyəti olan bu ölkədə universitet professorları ilə görüş zamanı onları Azərbaycan-Orta Asiya restoranına dəvət edərək milli mətbəximizlə tanış edirdim. Şəhərimizdə azərbaycanlı az olsa da, onlarla tez-tez görüşür, bayramları, xüsusi günləri birgə qeyd edirdik.

Həmsöhbətim deyir ki, 2022-ci ildə dərslərin onlayn davam etməsi Vyetnama köçmək və işləmək imkanı verdi. Vyetnamın ən turistik və əsrarəngiz təbiətə sahib Ha Long şəhərində müəllim kimi işləməyə başladım. Şəhərdə yeganə azərbaycanlı olsam da, dərs ili ərzində müxtəlif mədəniyyətlər, fərqli ölkələrdə təhsil sistemləri, mətbəxi, geyimləri ba-



rədə dərslərimizi tədris edirdik və bu mövzularla tələbələrdə Azərbaycana maraq oyadacağıma əmin idim. Bu məqsədlə dərs müddətində Azərbaycan mədəniyyətini, tarixini, gəzməli-görməli yerlərini şagirdlərimə tanıtmağa çalışırdım. Ha Longda keçirilən bir çox tədbirin aparıcısı olduğum üçün şəhərin təhsil sahəsində çalışan maarifçilər ilə görüşə bilirdim və hansı ölkədən olmağım onlarda maraq doğururdu. Mən də, öz növbəmdə, onlara bu barədə, xüsusilə Ulu Öndər Heydər Əliyevin Vyetnam səfəri, neft hasilatındakı qatqımız və vyetnamlı tələbələrin keçən əsrin sonlarında Azərbaycan universitetlərində təhsil almalarından danışırdım.

Bəhruz Bayramov qeyd edir ki, bu il isə Vyetnamın paytaxtı Hanoya köçdüm. Şəhərdə iyirmi nəfərdən çox azərbaycanlı yaşayır və hər həftə azı bir dəfə görüşür, söhbətləşir yaxud harasa gedirik. Həmyerlilərimin çoxluğu, güclü əlaqələrimizin olması, qürbətdə hər zaman yardımımıza gələcək birilərinin olduğunu bilmək bizə yad yerdə doğmalıq hissini yaşadır. Yeni səfirimiz də bu baxımdan bizlər üçün genişmiqyaslı işlər görür. Azərbaycanlılarla görüşlər və tədbirlər təşkil edir, mütəmadi olaraq Azərbaycanın təbliğatına xüsusi diqqət ayırırıq. Məsələn, ötən həftə ard-arda baş tutan yemək festivallarında Azərbaycan stendinin fəallığı festival iştirakçılarının diqqətinə səbəb oldu. Vyetnam mediası – qəzet və televiziyalarında da bundan bəhs edildi.

Müsahibimiz deyir ki, eyni zamanda Azərbaycandakı dost-tanışdan, qohumlardan da “Oralar necə yerlərdir?” kimi suallar gəlir və vaxtım olduqca Vyetnamdakı həyatım, səyahət etdiyim yerlərlə bağlı videoları “Youtube” sosial şəbəkə platformasında şəxsi kanalımda paylaşıram. Bu, həmvətənlərim və xaricilərin mədəniyyət inteqrasiyasına şərait yaradır.

Müsahibimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə öz arzularını da bizimlə bölüşür: “Mən də xarici ölkədə yaşayan bir azərbaycanlı gənc kimi ölkəmizin tanıdılmasında, layiqli şəkildə təbliğ edilməsində yaxından iştirak etdiyimə görə özümü çox xoşbəxt hiss edirəm. Ən böyük qayəmiz ana Vətənin layiqli övladı olmaqdır. Qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xalqımızı təbrik edir, ölkəmizə xoşbəxt gələcək arzu edirəm!”

*Müsahibimizin də qeyd etdiyi kimi, qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü hər birimiz üçün xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan xaricdə yaşayan hər bir həmvətənimiz üçün doğma torpaq, ana Vətən ən böyük sevgidir, dəyərdir...*

**✍ Aysel YUSİFZADƏ**

## Uşaqlar üçün bayram tədbiri keçirilib



*Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə bayram tədbiri keçirilib.*



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib. Tədbirdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar, o cümlədən şəhid və qazi övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud olan, həmçinin 2023-cü il ərzində təhsil, incəsənət və idman sahəsində xüsusi bacarığı ilə fərqlənən uşaqlar iştirak ediblər.

Çay süfrəsi ətrafında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Yeganə Məmmədova və Aidə Allahverdiyeva, M.T. Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının direktoru Şirzad Abutalıbov çıxış ediblər.

Ölkəmizdə uşaqlara göstərilən diqqət və qayğıdan bəhs edilərək bildirilib ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Uşaqların hüquqlarının, sağlamlıqlarının qorunması, təhsili, milli ruhda tərbiyəsi, asudə vaxtlarının səmərəli keçirilməsi, dünyagörüşlərinin formalaşması daim diqqət mərkəzində saxlanılır.



Çıxış edənlər uşaqları qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, təhsillərində və gələcək həyatlarında uğurlar arzulayıblar.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Naxçıvan Qızlar Liseyi, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi və Naxçıvan şəhər 11 nömrəli körpələr evi-uşaq bağçası 2023-cü il ərzində keçirilən tədbirlərdə komitə ilə səmərəli əməkdaşlıq etdiklərinə görə, o cümlədən 2023-cü il ərzində təhsil, incəsənət və mədəniyyət sahəsində xüsusi bacarıqlarına görə fərqlənən 10 uşaq Fəxri fərmanla təltif edilib.

Bədii hissə ilə davam edən tədbirdə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin “Əlvan çiçəklər” mahnı və rəqs qrupunun üzvləri, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorları və Naxçıvan şəhərində fəaliyyət göstərən 11 nömrəli körpələr evi-uşaq bağçasının balaca fidanlarının ifasında müxtəlif mahnı və rəqs nömrələri nümayiş edilmişdir. Tədbirin sonunda uşaqlara üzərində azad olunmuş rayonlarımızın adları yazılmış köynəklər hədiyyə edilib, Şaxta baba və Qar qız uşaqlarla görüşüb və onlara bayram sovqatı veriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*Xeyriyyəçi və pedaqoq Mirzə Məhəmməd Zamanbəyli 1 avqust 1860-cı ildə (Azərbaycan Dövlət Arxivinin kameral siyahısına əsasən) Şahbuzkənddə məşhur sərkərdə, rus-İran müharibələrinin iştirakçısı Zamanxan Kəngərlinin oğlu Hacı Fərzəli Sultan Kəngərlinin ailəsində anadan olub. Kəngərlilərin Bilici qolundan olan Naxçıvan hakimi Kərim xanın nəticəsidir. O, XVIII əsrin sonlarında Zaqafqaziyada yeganə peşəkar təhsil işçiləri yetişdirən Qori Müəllimlər Seminariyasının ilk məzunlarındandır.*

## *Böyük müəllim*
## Mirzə Məhəmməd Zamanbəyli…



Mirzə Məhəmməd Zamanbəylinin nüfuzu və göstərdiyi fədakarlığın sayəsində Qori Müəllimlər Seminariyasında Azərbaycan dilində tədris bölməsi fəaliyyətə başlayıb. Seminariyanı bitirdikdən sonra o bir müddət İrəvan Müəllimlər Seminariyasında müəllim kimi çalışıb (Памятная Книга Эриванской губернии 1914), sonra Naxçıvana qayıdıb və doğma Şahbuz rayonunda (Şahbuzkənd) öz vəsaiti hesabına orta məktəb tikdirib. Həmin illərdə Naxçıvanda “Xeyriyyə cəmiyyəti” təsis edib. Yüzlərlə kəndli və fəhlə övladlarının təhsil almasına yardımçı olan, aztəminatlı ailələrə maliyyə yardımı edən Mirzə Məhəmməd Zamanbəyli dövrünün görkəmli simalarından biri kimi tanınıb.

Mirzə Məhəmməd Zamanbəyli həm də 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması üçün mübarizə aparan ziyalılardan biri olub. Cümhuriyyətin Gəncədə fəaliyyəti dövründə M.M.Zamanbəyli Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi maliyyə və xalq maarifi sahəsində şuranın üzvü kimi fəaliyyətə başlayıb. O, elmi biliyi və pedaqoji təcrübəsini nəzərə alaraq təklif olunan vəzifələrdən imtina edib, yalnız təhsil sahəsində xidmət göstərib. Xalq Cümhuriyyətinin Gəncə və Bakıda fəaliyyəti zamanı təhsil sistemində, eləcə də ali təhsil sisteminin yaradılmasında Zamanbəylinin xidmətləri çox olub. Bundan əlavə, xeyriyyəçi pedaqoq Paris Sülh Konfransında iştirak edib. 1919-cu ildə fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin qurucularından biri olub. Amma təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra M.M.Zamanbəyli İran dövlətindən sığınacaq istəsə də, onun müraciətləri cavabsız qalır. Görkəmli maarifçi 1923-cü ildə vəfat edib.

Mirzə Məhəmməd Zamanbəylinin nəticəsi hazırda Bakı şəhərində yaşayan, ixtisasca mühəndis olan Anar Zamanbəyli bizimlə söhbətində babası haqqında maraqlı faktlara toxundu: “Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra özü və ailəsi çox əziyyət çəkiblər. Maraqlı faktlardan biri odur ki, Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli 1907-ci ildə öz dövrünün böyük mütəfəkkir ziyalısı kimi onun portretini hazırlayıb. Daha sonra o portret bizim ailəmiz tərəfindən təmənnasız olaraq Azərbaycan Milli İncəsənət Muzeyinə hədiyyə olunub. Doğulduğu Şahbuzkənddə öz vəsaiti hesabına ikimərtəbəli məktəb tikdirib. Həmin məktəb sökülüb və hazırda yerində başqa bir məktəb inşa edilib. Yüzlərlə azətminatlı ailələrin övladlarının təhsil almasına şərait yaradıb. Cümhuriyyət dövründə bir çox vacib sənədləri dilimizə tərcümə edib. O, Azərbaycan Xalq Cümhuriyyətinə öz maddi dəstəyini də əsirgəməyib. Ancaq onun ölümü ilə bağlı bizdə dəqiq məlumat yoxdur, harada dəfn olunduğu da məlum deyil. Bircə onu bilirik ki, cümhuriyyətin devrilməsindən sonra babamın bütün mülkü əlindən alınıb. Hətta bununla bağlı komissiya təşkil olunub, sovet hökuməti tərəfindən məktəb, xeyriyyə cəmiyyəti ondan təhvil alınıb”.

Söhbətinə davam edən müsahibimiz bildirdi ki, M.M.Zamanbəylinin maarifçilik ənənələri onun övladlarına da keçib. Övladları Xurşud xanım və Qafar Zamanovlar həm də Ümummilli Lider Heydər Əliyevin müəllimləri olublar. Xurşud xanım Naxçıvan şəhər 2 nömrəli orta məktəbdə, Qafar müəllim isə Naxçıvan Pedaqoji Müəllimlər İnstitutunda (1939-cu il buraxılışı) Ümummilli Liderimizə dərs deyiblər. Hətta Ulu Öndərə təhlükəsizlik orqanlarında çalışmaq üçün ilk xasiyyətnaməni də məhz Qafar müəllim təqdim edib.

2017-ci ildə Naxçıvanda “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş “Bəhruz bəy Kəngərli taleyi” kitabında Mirzə Məhəmməd Zamanbəylinin rəssam Bəhruz Kəngərlinin rus dili müəllimi olduğu bildirilir. Rəssam tərəfindən kömürlə işlənmiş qrafik lövhə isə kitabda belə qeyd edilib: “Rus dili müəllimi Mirzə Məhəmməd Zamanbəyovun portreti”.

Anar Zamanbəyli onu da qeyd etdi ki, onların ailə arxivində babası, Ulu Öndər Heydər Əliyevin müəllimi olmuş Qafar Zamanovdan qalmış yadigar bir foto da var idi. M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, M.M.Zamanbəyli və o dövrün bir çox tanınmış tarixi şəxsiyyətlərinin yer aldıqları həmin tarixi fotonu ötən il Naxçıvana gələrək Naxçıvan Dövlət Tarix Muzeyinə hədiyyə edib. Hazırda da həmin fotoşəkil muzeydə nümayiş etdirilir.

*Bəli, Mirzə Məhəmməd Zamanbəyli dövrünün tanınmış maarifçisi və xeyriyyəçisi olmaqla bərabər, Azərbaycan xalqının milli azadlığı, istiqlalı uğrunda mətinliklə mübarizə aparan ziyalılarımızdan olub. Bu cür şəxsiyyətlərimizi tanımaq milli tariximizi öyrənmək baxımından çox əhəmiyyətlidir.*

**✍ Səbuhi HƏSƏNOV**

# Yeni il, yeni başlanğıclar, yeni ümidlər





“Snowfest – qış festivalı”nın artıq dördüncü günüdür. Bir neçə gündən sonra 2024-cü il yurdumuza qədəm qoyacaq. Ömrümüzdən pay verdiyimiz daha bir ili geridə qoyuruq. Yeni il yeni başlanğıclar, yeni ümidlər deməkdir. İnsanların simasında əsl bayram əhvali-ruhiyyəsi hiss olunur. 2024-cü ilin gəlişi münasibətilə artıq bir neçə gündür ki, şəhərimizdə küçə və prospektlər bəzədilib, mərkəzi meydanda yeni ilin simvolu olan küknar ağacı qurulub. Hər tərəf al-əlvan rəngə boyanıb. Bu bayramda hamının sevimlisinə çevrilən Şaxta baba və Qar qız da küknar ağacının ətrafında cəm olub uşaqlara müxtəlif hədiyyələr verir, xatirə şəkilləri çəkdirirlər. Biz də bayram günləri ərəfəsində bir neçə şəhər sakini ilə görüşüb həmsöhbət olduq.

Şəhər sakini ***Fəxrəddin Qurbanov*** dedi ki, bu il artıq şəhərimiz ənənəvi yeni il proqramı çərçivəsindən fərqli şəkildə bəzədilib. Hər kəs yeni ilin gəlişini daha xoş ovqatla qarşılayır. 2023-cü il ölkəmiz üçün daha düşərli oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hərbi zəfərlər qazanaraq xalqımız aydın sabahlara addımladı. Artıq yeni ili müstəqil, ərazi bütövlüyünü təmin etmiş bir ölkə olaraq qeyd edirik. Mən də nəvəmlə birgə buraya gəlib vaxtımızı əyləncəli keçirməyə çalışırıq. Bu bayram günündə ən çox sevinənsə bizim azyaşlılarımızdır. Ən çox da şəhərcikdə olan cizgi film qəhrəmanlarının personajları uşaqların sevincini birə-beş artırır. Müsahibimizə yaxşı istirahətlər arzulayıb növbəti sakinlərlə həmsöhbət olduq.



Babək rayon Sirab kənd sakini, 63 yaşlı ***Xatirə Babayeva***da balaca nəvəsi Turanı gəzintiyə çıxarıb. Xatirə xanım deyir ki, bu il şəhərimizdə bayram hazırlıqları daha böyük çərçivədə aparılıb. Bir-birindən fərqli təamlar, mətbəx nümunələri göz oxşayır. Xanımlarımızın əl əməyi, göz nuru olan əl işlərinin satışı həyata keçirilir. Satışa çıxarılan məhsulların qiyməti də olduqca münasibdir. Bu bayram bütün dünyada yaşayan azərbaycanlıları bir bayraq altında birləşərək həmrəyliyinin və gücünün göstəricisidir. Biz də bu bayram münasibətilə xalqımızı təbrik edirik.

Digər bir müsahibimiz də “Snowfest – qış festivalı” sərgiləsində iştirak edən şəhər sakini ***Şəfəq Şahbazova***dır. Beş mindən çox əl işi ilə festivala qatılan Şəfəq xanım təbii daşlar, üzərliklər, yeni ilə aid xonça nümunələrinin satışını həyata keçirir. Yanvarın 7-nə kimi davam edəcək festivalda iştirak edəcəyini bildirən Şəfəq Şahbazova Naxçıvan şəhərində təşkil olunan festivalların mütəmadi iştirakçısı olduğunu bildirir. Müsahibimiz bu ilin digər illərə nəzərən daha fərqli keçdiyini, şəhərin yeni ilə xüsusi hazırlandığı və görüntülərin xüsusi gözəllik qatdığını bildirir. Həmsöhbətimiz dövlətimiz tərəfindən yaradılan şəraitə görə təşəkkürlərini bildirərək dünya azərbaycanlılarını təbrik etdi.



Muxtar respublika sakinləri yeni ili böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qarşılayır. Belə bir deyim vardır ki, yeni ili hansı əhval-ruhiyyə ilə başlasan, bütün ili həmin ovqatla başa vuracaqsan. Biz də “Şərq qapısı”nın oxucularına və dünya azərbaycanlılarına bu gözəl bayrama xoş ovqatla başlamağı, bütün arzularının çin olmasını diləyirik. 2024-cü il hər birinizin həyatında ən uğurlu illərdən biri olsun. Yeni il bayramınız mübarək! Hər zaman həmrəy olaq!

✍ **Bülbül QULİYEVA**

✍ **Süreyya QƏDİMƏLİYEVA**

*Ölkəmizdə infeksion xəstəliklərə yoluxma hallarının çoxalması günümüzün aktual məsələlərindən biridir. İlkin olaraq belə hallarda böyüklərdən daha çox azyaşlı uşaqların zərər görməsi, bu sahədə qabaqcıl səhiyyə tədbirlərinin aparılmasını şərtləndirir. Bununla yanaşı, azyaşlı uşaqların yoluxduğu infeksion xəstəliklər çox təhlükəli olmaqla bərabər bəzi hallarda ölümlə də nəticələnə bilir. Diqqətə çatdıraq ki, azyaşlıların infeksion xəstəliklərinin profilaktikasında əsas tələbat xəstəliyin qarşısını almaq istiqamətində peyvəndlənmənin aparılmasıdır. Bu mövzuda daha ətraflı məlumatı Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının həkim-pediatrı **İlkay Əliyeva**dan aldıq.*

**Həkim məsləhəti**

## Peyvəndləmədən kənar qalmış uşaqlar yoluxucu xəstəliklərdən daha çox zərər görürlər

Müsahibimiz suallarımızı cavablamaqla yanaşı, peyvəndlənmənin aparılması istiqamətində öz təcrübəsinə əsaslanaraq fikirlərini bizimlə bölüşdü.

İlkay həkim əvvəlcə peyvənd nədir və Azərbaycanda hansı növlərindən istifadə olunduğundan bəhs etdi. Bildirdi ki, infeksiyaya qarşı immuniteti təmin etmək üçün hazırlanmış və orqanizmə müxtəlif üsullarla verilən bioloji məhlul peyvənd adlanır. Daha geniş izah etsək virus və mikrobların zəiflədilmiş, xəstəliktörətmə qabiliyyəti olmayan formasıdır. Xəstəliktörədicisinin zəiflədilmiş formada orqanizmə yeridilməsidir. İnsan orqanizminə yeridilən peyvənd sayəsində orqanizm həmin infeksiyanı tanıyır və ona qarşı immunitet yaranır. Peyvənd olunmuş uşaq ya o xəstəliyə tutulmur, ya da yüngül formada keçirir. Yəni gələcəkdə yaranacaq ağır fəsadlar sanki qabaqlanmış olur. Azərbaycanda on bir yoluxucu xəstəliyə qarşı peyvənd aparılır ki, bunlar hepatit B, vərəm, difteriya, göyöskürək, tetanus, B tipli hemofil infeksiya, qızılca, parotit, məxmərək, poliomielit və pnevmokok infeksiyalarına qarşı tətbiq edilən peyvəndlərdir. Vaksinlər Azərbaycan Respublikasının Milli peyvənd təqviminə əsasən sıralanmışdır və ilkin olaraq körpənin doğumundan sonra 12 saat ərzində başlamaqla 6 yaşına kimi davam edir.



“Peyvəndlər hansı hallarda vurulmamalıdır, əks təsiri nə ola bilər?” sualına müsahibimiz belə cavab verir: – Vaksindən sonra yaranan arzuolunmaz təsirlər və çox nadir ciddi təsirlər kimi təsnif edilə bilər. Peyvəndlər peyvəndin komponentinə qarşı yüksək həssaslıq olduqda, QİÇS, aktiv vərəm xəstələrinə vurulmur. Peyvənd vurulan zaman uşaq sağlam olmalıdır. Pediatr tərəfindən uşaq hərtərəfli müayinə edilməli və daha sonra peyvənd olunmalıdır. Ehtiyac olduğu hallarda pediatrlar digər ixtisas həkimləri ilə də məsləhətləşirlər. Peyvənd aparıldıqdan sonra bəzi uşaqlarda temperaturun qalxması, peyvənd vurulan yerdə ağrı, şişkinlik, qızartı kimi hallar ola bilər. Valideynlər bundan qorxmamalıdır, çünki bu simptomlar 24-48 saat ərzində öz-özünə yox olur.

İlkay xanım onu da vurğuladı ki, körpələrin infeksiyalara qarşı ən böyük müdafiəçisi ana südü və peyvənddir. Uşaqlar peyvənd olunmadıqda infeksion xəstəliklərin mikrobları ilə qarşılaşır və orqanizmdə mübarizə apara biləcək immunitet olmur. Bu zaman onlar ən yüngül, ən sadə xəstəlik dönəmini belə çox ağır keçirirlər. Vaksin vurulduqda isə orqanizmdə xəstəliyə qarşı əvvəlcədən immunitet formalaşır, insan ya, ümumiyyətlə, xəstələnmir, ya da xəstəliyi yüngül keçirir. Bu, azyaşlıların gələcək həyatında balans rolunu oynayacaq və xəstəliklərə yoluxsalar belə öhdəsindən rahat gələcəklər. Həkim-pediatr diqqətə çatdırdı ki, valideynlər peyvəndə qarşı biganə yanaşmamalıdırlar, peyvəndlər uşaqları bir çox yoluxucu xəstəlikdən qoruyur və onların həyatını xilas edir. Peyvənd mümkün qədər təqvimə uyğun vaxtda aparılmalıdır. Valideynlərə peyvəndin faydası izah olunmalı, onlarda yarana biləcək fikir ayrılıqlarına son qoyulmalıdır. Vaksinlərdən kənar qalmış uşaqların yoluxacağı xəstəliklərdən daha çox zərər görmələri mövzusunda geniş maarifləndirici tədbirlər görülməlidir.

İlkay həkim peyvəndləmənin hansı yaş aralığında aparılması barədə də söz açaraq bildirdi ki, Milli peyvənd təqviminə əsasən peyvəndlər 0-6 yaş olaraq göstərilir. Bilindiyi kimi, 0-6 yaş aralığında uşaq orqanizmi yoluxucu xəstəliklərə qarşı daha həssas olur. Ona görə də peyvəndlər vaxtında icra edilməlidir. Lakin hazırda ölkəmizdə də yayılan qızılca xəstəliyinə görə 10 yaşına çatmamış azyaşlılar da bu baxımdan peyvənd oluna bilərlər. Əziz valideynlər, unutmayaq ki, uşaqlar bizim gələcəyimizdir. Onları qarşılaşacaqları xəstəliklərdən qorumaq üçün bu məsələyə biganə qalmamalıyıq. Vaksin proseslərindən keçmək üçün poliməkəzlərə yaxınlaşaraq azyaşlıların peyvəndlənməsi üçün müraciət etməlisiniz.

*Əziz oxucularımız, bir daha diqqətinizə çatdıraq ki, müdafiə xarakteri daşıyan bu mühüm tibbi tədbiri təxirə salmamaq övladlarımızın sağlamlığı üçün olduqca böyük əhəmiyyət daşıyır. Öhdəmizə düşən bu məsuliyyəti layiqincə yerinə yetirmək isə çox vacibdir…*

✍ **Süreyya QƏDİMƏLİYEVA**

## Əziz teatrsevərlər!
















***Yeni il bayramı münasibətilə Naxçıvan teatrlarında nümayiş olunacaq tamaşaları sizə təqdim edirik.***

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı hamınızın marağına səbəb olacaq “Şaxta babanı tapaq” tamaşasını 29,30 dekabr, 1,2,3 yanvar tarixlərdə, saat $12^{00}$-da nümayiş etdirəcək.***

***M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bayram sovqatı isə balaca dostların sevincinə səbəb olacaq. Belə ki, 1,2 yanvar tarixlərdə “Kələkbaz canavar”, 3,4 yanvar tarixlərdə “Turp”, 5 yanvarda “Buratino”, 6 yanvarda isə “İnanmayın tülkülərə” tamaşası nümayiş olunacaq. Səhnə əsərləri qeyd olunan günlərdə, saat $11^{00}$, $13^{00}$ və $15^{00}$-da təqdim olunacaq.***

***Naxçıvan Dövlət Uşaq Teatrı isə bayram günlərində balaca teatrsevərlərin qarşısına “Doktor Aybolitin dostları” tamaşası ilə çıxacaq. Tamaşa 1 yanvarda, saat $11^{00}$ və $15^{00}$-da, 2,3,4 yanvar tarixlərdə isə saat $12^{00}$ və $14^{00}$-da nümayiş olunacaq.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## “Mancanaq robot” müsabiqəsi keçirilib



*Dekabrın 27-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə STEAM Təlim-Tədris Mərkəzində muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında “Mancanaq robot” müsabiqəsi keçirilib.*

Müsabiqədə 40 komanda olmaqla, 120-yə yaxın müəllim və şagird iştirak edib. Yarışın qaydalarına əsasən hər bir komanda hazırladıqları mancanaqdan istifadə edərək tennis toplarını təyin edilmiş məsafədən yerləşdirilən dairəvi qutuya atmaları tələb olunub. Müsabiqədə yarışan komandalar püşkatma yolu ilə seçiliblər.

Müsabiqənin təşkilində əsas məqsəd şagirdlərin mikrobitdən istifadə edərək dizayn, mühəndislik və kodlama bacarıqlarının təkmilləşdirilməsidir.

Müsabiqdə qalib komandalar Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən medal və Fəxri fərmanla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## İdmançımız Türkiyədə peşəkar döyüşün qalibi olub



Türkiyənin Muş vilayətinin Bulanıq bölgəsində ilk dəfə olaraq muay tay üzrə peşəkar döyüş gecəsi təşkil olunub. “Muaythai Figh Night” adlı idman tədbirində Türkiyə ilə yanaşı, Azərbaycan və İrandan olan idmançılar da iştirak ediblər.

Naxçıvan Kikboksinq Federasiyasının məşqçisi Namiq Musayevin rəhbərliyi ilə muxtar respublikadan 4 idmançı yarışa qatılıb. Onlardan yalnız biri – 63,5 kiloqram çəki dərəcəsində çıxış edən Hüseyn Həsənov türkiyəli Ufuk Bakırhanla görüşü qalibiyyətlə tamamlayaraq qızıl medala və kəmərə sahib çıxıb. Digər idmançılarımız gümüş medalla təltif olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı

Baş redaktor müavini:
MƏMMƏD BABAYEV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Aidə İbrahimova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 749